Serbestî û Azayî Roja Geşe! Koletî û Bindestî Roja Reşe!

DENGÊ KURD

NAVENDA ÇANDA KURD "RONAHÎ"

Ji çleyê paşin sala 1992 tê weşandinê 25 cotmehê sala 2004 -a Hejmar 7(57)

BÖYÜK ŞAİR, CƏFAKEŞ İNSAN ŞAMİL MÜƏLLİM! 75 İLİNİZ MÜBARƏK OLSUN!

Anadan olmağınızın 75 ili oktyabr ayının axırlarında tamam olur. Siz haqlı olaraq fəxr etməyə layiq bir həyat yolu keçmisizniz. Həyatda göstərdiyiniz fəaliyyət bir tərəfli olmamışdır. Siz işlədiyiniz sahələrdə həmişə inkar edilməz naliyyətlər qazanmısınız.

Sizin 70 illiyinizə həsr olunan kitabda 150-dən artıq şəxsin barənizdə ürək sözləri çap olunmuşdur. Bu fikirlərdə sizi bacarıqlı bir işçi, təşkilatçı və təşəbbüskar, sadə və tələbkar, yaradıb quran, xalqa və vətənə ürək telləri ilə bağlı olan, müəllim, memar, geoloq, etnoqrafçı, riyaziyyatçı, dilçi, ədəbiyyatçı, tarixçi – bir sözlə enksilopedik biliyə malik bir şəxsiyyət adlandırırlar.

Siz həm də ədəbi yaradıcılıq sahəsində könül açan müvəffəqiyyətlər müəllifi kimi tanınırsınız. Sizin özünüz yazdığınız, tərcümə etdiyiniz və haqqınızda yazılan kitabların sayı 30-a yaxındır. Təvazökar olduğunuza görə ömrünüzdə bir dəfə də olsun nə ictimai bir yerdə, nə də heç evinizdə anadan olduğumuz günü qeyd etməmisiniz.

1999-cu ildə 70 illiyiniz münasibəti ilə yazdığımız və qəzetdə çap etdirdiyimiz təbrikdə sizə yeni-yeni yaradıcılıq müvəffəqiyyətləri arzulamışdıq. Sevinirik və sizdən qəlbən razı qalırıq ki, bizim arzularımızı ləyaqətlə yerinə yetirirsiniz.

HÖRMƏTLİ ŞAMİL MÜƏLLİM

Ötən beş ildə rəhbərlik etdiyiniz, sıfırdan başlayıb Bakı şəhərində yaratdığın muzeyin eksponatların sayı 5 minə çatmışdır. Həm də bütün bu əşyalar pulsuz-parasız əldə edilmiş və yaradılmışdır.

Deyilənlərlə yanaşı son beş ildə gərgin əməyin, xalqa və vətənə xidmət etmək arzunuzun nəticəsində ədəbiyyatın və dilin inkişafında böyük əhəmiyyəti olan kitablar yazıb oxuculara töhfə etmisiniz. Bu müddət ərzində yazıb təkmilləşdirdiyiniz, iki cilddə çap olunmuş «Azər- baycan dilinin mənzum cinas lüğəti», tarixdə ilk təşəbbüs olmaqla yanaşı cinas yaratma sahəsində Azərbaycan dilinin əvəzsiz bir dil olduğunu sübuta yetirmisiniz.

Sizin «Şerdə yeniliklər» kitabınız əsil möcüzədir. Bu kitabda ədəbi yeniliklər olaraq «törəmə», «dodaqdəyməz törəmə», «dodaqdəyməz, əvvəl-axır, törəmə» adlı, «bütün kəlmələri eyni hərflə başlanan», «Şerdən törəyən şerlə»-iniz ədəbi yeniliklərdir. Adı çəkilən kitabda üç poemanız və bir dastan-hekayətiniz işıq üzü görmüşdür. Bu poemaların biri bütünlüklə cinaslarla yazılmış, biri dodaqdəyməz, törəmə, biri dodaqdəyməz, əvvəl-axır şəkilində qələmə alınmışdır. Yazdığın dastan-hekayət də dodaqdəyməz hərflərlə üzə çıxmışdır. Bu əsərdə adi sözlərlə yanaşı, 3600 misra şer də dodaqdəyməzdir. Siz çox çətin və şərəfli bir işin öhdəsindən gəlmisiniz.

«Törəmə sözlər lüğəti»niz də tarixdə ilk dəfə tərtib olunan yenilikdir.

Siz kürd dilində şerlər, poemalar yazmaqla yanaşı 100-dən çox Azərbaycan şairlərinin şerlərini kürd dilinə tərcümə etmisiniz. Azərbaycanda yaşayan kürdlərin tarixindən dəyərli məqalələr çap etdirmisiniz.

ƏZİZ ŞAMİL DƏLİDAĞ!

Siz Azərbaycan və kürd xalqlarının arasında polad möhkəmliyində bir dostluq körpüsüsünüz. Hələ 24 il bundan əvvəl yazdığınız aşağıdakı həqiqətlər bu gün də öz qüvvəsindədir, tarixlər boyu da öz əhəmiyyətini saxlayacaqdır.

Deyillər ki, bir oğulu,
Doğa bilməz iki ana.
Çox uzağa getməyin heç,
Mən timsalam bu gün ona.
Bir anam Kürd, bir anam Od –
Odlar yurdu Azərbaycan.
İkisinin yolunda da
Göz qırpmadan verərəm can.
Od anama sataşanı
Diri-diri soyaram mən.
Kürd anama daş atanın,
Gözlərini oyaram mən.

Sizə uzun ömür, möhkəm can sağlığı, yeni-yeni müvəffəqiyyətlər arzulayırıq.!

"RONAHİ"
KÜRD MƏDƏNİYYƏT MƏRKƏZİ

BİLA PÎROZBE 75 SALÎYA WE!
ŞAMÎLÊ SELÎM DELÎDAXÊ PÎR BIRÊZ!

Îsal, sala 2004, meha cotmehê, 75 salîya we xtim dibe. We rêke jîyanêye bi sîyanet derbazkirîye! Bi wê mirov dikare firnaxbe! Cîyên ku, we lê kar kîrîye tîmê gulvedaye, hûn bi serbilind bûne.

Pirtûka, ku rewayî 70 salîya bûyîna we bîbû, ji 150 kesî zêdetir mirovan derbarê weda nêtên xwe anîne ser zara. Wan kesan pêşger, nêt-armançên xwe da dane kivşê, wekî hûn mirovekî karhiz, destemel, peyandin, arî û temilkar, efrandar-sazdar, çêkirdar, gêolok, etnograf, rîyaziyyatzan, zîmanzan, wêjezan, dîrokzan, bi gilîkîva hûn xwedanê zanebûna ênsklopêdîkin. Hûn hîm jî di alîyê efrandarîyêda hatîne naskirinê çawa torîvanekî bi serfinîyaz. Jimara pirtûkên we nivîsîne, yên ku derbarê weda hatîne nivîsarê weke sîyînîn. Hûn ne mirovekî qurene, lema ji heta naha ne ji alîyê cîvakîyêda, ne jî di mala we bi xweda roja dayîkbûna we nehatîye derbazkirînê. Her tenê pênc sala berê, wedê 70 salîya we, me di rojnama «Dengê Kurd»-da hûn pîrozkirin, wera serfînîyazî, efrandarîya bi kel-bîn xwestî bû.

Mamoste Şamîlê, bi rûmet!

Nava van pênc salên derbazbûyîda entîqxana, ku hûn serkarîyê lêdîkîn, jimara êksponatên wê gîhîştîye penc hezaran.

Pêwîste ser van gotîna da wê yekê jî zêdekîn, wekî karhîzîya we, daxweza weye ber bi welêt û gel rehetî nedaye we û we bona kûrkirîn-pêştabîrîna wêje û zimîn pîrtûkên giran-hêje nivîsîne û gîhandîye xwendevanên delal.

Di nava vî wedayîda we ji du berhema «Ferhanga cînasaye helbestî ya zîmanê Azerbaycanî» ku we nivîsîye, kamîlandîye dîrokêda cara yekeme ronahî ditîye, hîm jî ew dîde kîvşê zîmanê Azerbaycanê pîrr dewlemende. Pirtûka weye bî navê «Helbestîyêda nûdêmî» tîştekî nedîtîye. Wêda sê poyêm û dastan-serpêhatîkek hatîye cî-war kirinê.

Efirandîna helbestên lêvlîhevneketî dîjwarîke mezine. Vê pîrtûkêda weke 3600 rêz helbestên lêvlihevneketîye.

Hûn bî kurdî jî helbestan dîefirînin, hîm jî, jî helbestvanên Azerbaycana werger kîrine. Cîye bî pesîn û bî şêkirdarnî bêjin we derbarê kurdên, ku dewra hên da li Azerbaycanê jîne gotarên dîrokî nîvîsîne.

We van salên dawîyêda efrandîn-karpêkên usa nivîsîne, wekî her yek wan hêjayî lêkolînên kûrîn. Pitûkên mîna «Selam Delîdax», «Hezar pirsan, hezar bersîv», «Keça lal» û yên mayîn ji wan karpêkanin.

Çiqilekî karên we ew bûyê, wekî we tîmê derbarê dostîya herdu gela da-ya Azerbaycanê û Kurdanda nivîsîye, efirandîye!

Em wera jîyana dirêj û serfînîyazîyê dixwezin.

NAVENDA ÇANDA KURD
"RONAHÎ"

MƏMMƏD ARAZ

O, daşdan yoğrulub dağ zirvəsində,
Baxışı qəzəbli, duruşu məğrur.
Elə dartınıb ki, yan yörəsindən,
Qoca qartallar da uçmağa qorxur.

HÜSEYN KÜRDOĞLU

Onu yaradan kişi çağdaş Prometey idi,
Dağıtdı bu nağılı, qarət eylədi yağı.
Vətənin sinəsindən getməz bu namərd dağı.
Kəlbəcərin muzeyi bir nağıl muzey idi,
Dünyada hər şey idi.

ŞAMO ARİF

Şamil, düz sözümdür, sən qibtə ediləsi bir şəxsiyyətsən. sənin mərdliyinə, təbiət vurğunluğuna, sənin kişi dözümlüyünə, dünya görüşünə, zəkana vurğunluğunu heç vaxt gizlətməmişəm.

ŞAMİL DƏLİDAĞIN ÇAP OLUNMUŞ KİTABLARI

"DAĞ ÜSTƏ DAĞ"

Bakı, «Azərnəşr», 1964. 48 səhifə.

«Dağ üstə dağ» Şamilin çap olunan ilk şerlər kitabıdır. Burada onun qoşmaları, gəraylıları və başqa şəkilli şerləri çap olunmuşdur. Çoxdan bəri aşıqların və müğənnilərin dilindən eşitdiyimiz «Döndərər» adlı gəraylı da bu kitabdadır.

. . . Hikmətdirmi arı şanı?
Şamil, onda hünər hanı?
İnsan əli boz tikanı,
İstəsə gülə döndərər.

"XALQIN ŞAİRİ"

Bakı, «Gənclik» nəşriyyatı, 1968. 92 səhifə

Şamil Əsgər Dəlidağ 1968-ci ildə böyük kürd şairi Ciyərxunun həyatı və yaradıcılığı haqqında dissertasiya müdafiə edib filologiya elmlər namizədi adını almışdır. Onun Xalqın şairi» adlı bu kitabı da Ciyərxun haqqındadır. Əsər «Bir neçə söz adlı» müqəddimədən, Şairin həyatı», «Yaradıcılığı» və «Ciyərxunun yaradıcılığında sənətkarlıq xüsusiyyətləri» adlı üç fəsildən tbarətdir.

Ciyərxun kürd xalqının azadlığı yolunda mübariz bir şair kimi tanınmışdır. «Xalqın şairi» kitabında tərcümə edilib verilmiş şer parçasına diqqət yetirsək deyiləni yəqin edərik. Şair xalqı kölə halına salan, yadlara satılmış ağalara üz tutub deyir:

El-obanın içində hərəniz bir şirsiniz,
Saraya gedəndəsə tülküyə dönürsünüz.
Var-dövlət xatirinə qul olmayın yadlara,
Qan tökməsək gün doğmaz bizim zülmət diyara.
Ciyərxun candan keçir azadlığın yolunda.

"DƏLİDAĞIN SƏDASI"

Bakı, «Gənclik» nəşriyyatı, 1973. 54 səhifə.

Bu kitabda «Dəlidağın şöhrəti» poemasının bir parçası çap olunmuşdur. Sonralar bu poema ayrıca kitab şəklində 2003-cü ildə bütövlüklə nəşr edilmişdir.

«Dəlidağın sədası» kitabında «Sevincim, qəzəbim», «Min dilli, yüz əməlli» və «El çeşməsindən» adlı fəsillər vardır.

Kitabdakı şerlərdən nümunə:

SƏHVİN NƏFİ

Hər insanın səhvi var,
Bəzən səhvin nəfi var.
Səhvindir –
Bir namərdi
Dost seçib oda yansan.
Nəfindir-
Yarı yolda
Bacarıb aralansan.

"DAĞ ÇİÇƏKLƏRİ"

Bakı, «Gənclik» nəşriyyatı, 1986. 120 səhifə.

Şamilin bu kitabında sonradan «Dəlidağa salam» adlandırdığı poemasının bir parçası «Dəlidağın şöhrəti» adı altında çap olunmuşdur. Kitab «Ürəyimə ürək sözüm», «El-obanın məhəbbəti bəsimdi», Dördlüklər», «Rüba- ilər» və «Cinaslı baya- tılar» fəsillərinə ayrıl- mışdır.

Kitabdan bir neçə sətir:

Qədirbilməz

Hələ qədirbilməzin,
Gen deyildi dərisi.
Barmağının beşini
Bal etmişdi əmirdi.
Əmib-əmib yekəldi,
Əmib-əmib kökəldi.
Axırda bal əmdiyi,
Barmaqları gəmirdi

"DAĞLARIN HİKMƏTİ"

Bakı, «İşıq» nəşriyatı, 1987, 100 səhifə

Bu kitabda Kəlbəcər, Laçın, Göyçə, Gədəbəy və Yardımlı rayonlarının etnoqrafiyasına geniş yer verilir. Kitabda «Hikmətlər diyarı», «Ulu dağlar, abidələr və rəvayətlər», «Xalq oyunları», «El müdrükləri», «Yaşı və nəsli yüzdən keçənlər» və «Saz-söz hikməti» adlı bölmələr vardır.

Kitabda Gədəbəyli Miskinli şair Vəlidən, Laçınlı el xanəndəsi Abdulhüseyn İmran oğlundan, Göyçəli lətifəçi Qamanov Bəhramdan, Kəlbəcərin lətifə ustaları Kərbəlayı Fərəcdən, Kəlbalı Nəbi oğlundan, «Yeddi hünər», «Kaftar kosa», «Maraloyunu» kimi bir çox xalq oyunlarından və digər maraqlı xalq adət-ənənlərindən söhbət açılır.

"HƏYATIN ASTARI, HƏYATIN ÜZÜ"

Bakı, «Yazıçı» nəşriyatı, 1990. 240 səhifə.

Bu kitabda Şamil Dəlidağın dördlükləri, səkkizlikləri, bayatıları, qoşmaları, gəraylıları, təcnisləri, mənzum idiomaları, həyat həqiqətləri, dodaqdəyməz qəzəlləri, «törəmə» adlandırdığı şerləri özünə yer tapmışdır.

Kitabdan:

TƏZƏLƏNİBDİR

Harınlar min illər xalqı edib qul,
Qızılla, gümüşlə məzələnibdir.
Toyu da nimdaşda keçirib yoxsul,
Öləndə paltarı təzələnibdir.

"ŞƏHİD MUZEY, ŞAHİD MUZEY"

Bakı, «Sabah» nəşriyyatı,1997. 72 səhifə.

Kitabda şəhid olub erməni qəsbkarlarının əlinə keçən adı dillər əzbəri olan «Kəlbəcər tarix-diyarşünaslıq muzeyi»ndən geniş söhbət açılır. Muzeyin hər bir salonu və onun zəngin fondu barədə ətraflı məlumat verilir. Bir çox tamaşaçıların bu əvəzsiz muzey haqqında qiymətli rəylərinə də kitabda yer verilmişdir.

Şamil müəllim qaçqınlıq dövründə Bakı şəhərində pulsuz-parasız yeni «Kəlbəcər tarix-diyarşünaslıq muzeyi» yaratmağa və bu muzeyin adını şəhid olmuş muzeylərə «Şahid» muzey adlandırdı.

Hazırda bu muzeyin beş minə yaxın eksponatları vardır.

"AZƏRBAYCAN DİLİNİN QAFİYƏ LÜĞƏTİ"

Bakı, «Sabah» nəşriyyatı, 1997. 98 səhifə.

Şamil Dəlidağın ta- rixdə ilk dəfə tərtib etdiyi «Azərbaycan dili- nin qafiyə lüğəti» kril əlifbası ilə çap edilmişdi. Sonradan o bu lüğətini xeyli təkminlləşdirib latın qrafiyası ilə meydana çıxardı.

"LOĞMANIN YADİGARI"

Bakı, «Sabah» nəşriyyatı, 1997. 252 səhifə

Bu kitab Azərbaycanın adlı-sanlı cərrahı, tibb elmlər namizədi, həkimlik etdiyi dövrdə 20 mindən artıq cərrahiyyə əməliyyatı aparmış, insanları həyata qaytarmış, gözəl insan, qayğıkeş Loğman, Sumqayıt şəhərində təcili yardım xəstəxanasının baş həkimi Sadıqov İzzət Camal oğlunun ömür yoluna həsr etmişdir.

"KƏLBƏCƏRİN QƏM DASTANI, VİRAN OLAN GÜLÜSTANI"

Bakı, «Çıraq nəşriyyatı», 1998. 314 səhifə.

Qədirbilənlər bu kitabı Kəlbəcər haqqında ensi- klopedik məlumatlar top- lusu adlandırırlar. Kitabı oxumaqla Kəlbəcərin ecazkar təbiəti, onun qədim abidələri, yaylaqları, bulaqları, mineral və süxur daşları, qayaları, ağbirçək və ağsaqqalları, ziyalıları, yüz ildən artıq ömür sürənləri, lətifələri və başqa zənginlikləri haqqında geniş məlumat əldə etmək olar.

Kitabda Kəlbəcərin nankor qonşularımız tərəfindən xaincəsinə işğal edilməsinə, bu faciənin baş verməsinə birinci növbədə o zamankı iqtidarın günahkar olmasına, rayonun müdafiəsinin təşkil olunmamasına geniş yer verilmişdir.

"davamı 3-cü səh."

(əvvəli 2-ci səh.)

ŞAMİL DƏLİDAĞIN ÇAP OLUNMUŞ KİTABLARI

"MƏNZUM CİNASLAR"

Bakı, «Azərnəşr», 1998. 640 səhifə

Əslində bu kitabın adı «Azərbaycan dilinin mənzum cinas lüğəti»dir. Bəri başdan onu da deyək ki, hələ indiyə kimi heç kim tərəfindən belə bir lüğət yazılmamışdır. Şerlə yazılan bu lüğətin təqribən 95-96 faizi Şamilin yazdıqları, yerdə qalanları isə bəzi aşıq və şairlərin sözləridir. Onların da kimə məxsus olduğu kitabda göstərilmişdir. Ən çox Aşıq Alının və Hüseyn Kürdoğlunun cinaslarına yer verilmişdir.

Lüğət əlifba sırası göstərilməklə iki mənalı, üç mənalı.... nəhayət yüz mənalı cinasların fəsillərinə bölünmüşdür. Məsələn, «üz yara sarı» ifadəsinin 100 mənası vardır! Möcüzə deyilmi? Bu ifadənin 100 mənasını açıqlamaqla onu şerləşdirmək heç də asan bir iş deyildir.

Sözlər və ya ifadələr kitabda lüğətlərdə olduğu kimi yazılmış və onların qarşısında mənaları şerlə açıqlanmışdır.

Xalq şairi Nəbi Xəzri, akademik Budaq Budaqov, şairlərdən Cavad Cavadlı, Firudin Şimşək, Mürvət Qədimoğlu, Sədaqət Kərimova və başqaları haqlı olaraq yazdıqları kimi Şamilin bu əvəzsiz xidməti böyük fəxri ada və ən yüksək mükafata layiqdir.

"VƏTƏNƏ GƏRƏKLİ OĞUL"

Bakı, «Çıraq» nəşriyyatı, 1998. 316 səhifə.

«Vətənə gərəkli oğlul» kitabı Azərbaycanın ən məşhur üz-çənə cərrahiyəsi üzrə tibb alimi Baxış Hüseynovun keçdiyi həyat yolunun əks sədasıdır.

Şamil Dəlidağ Baxış həkimə şerlə yazdığı məktublardan da kitaba daxil etmişdir.

DAĞLAR ƏLDƏN GETSƏ

Baxış, qulaqlara pambıq tıxanıb,
Heç bir yana çatmır hay-harayımız.
Bıçaq lap sümüyə çatıb dayanıb,
Yaxınlaşır hər gün ta vay-vayımız.

Daşnaqlar fürsəti keçirir ələ,
Bizim «baş bilənlər» yatıbdır hələ.
Əgər belə getsə qopar vəlvələ,
Qaçqınlıq bizim də olar payımız.

Dağlar əldən getsə dözmək olarmı?
Başa papaq qoyub gəzmək olarmı?
Baxış, bu dərdlərin çarəsi varmı?
Niyə oxsuz qalıb söylə yayımız?

Şamil Dəlidağam, sən işə bax, bir,
Görmürük yaranıb gözümüzdə tir.
Hərgah görünməsə ən qəti tədbir,
Batıb ulduzumuz, batıb ayımız.

26.XII-1992

Baxış Hüseynov 5 yanvar 1993-cü ildə Şamilin bu şerinə cavab məktubunda dərin həyacan keçirdiyini bildirir.O yazır: «Şamil, xahiş edirəm ruhdan düşməyəsiniz, babalarımız Qaçaq Nəbinin, Soltan bəyin hünərlərini cavanlara aşılayasınız. Sinənizi Azərbaycan torpaqlarına sipər edib, məni də öz yanınızda sayasınız».

"DODAQDƏYMƏZLƏR"

Bakı, «Çıraq» nəşriyyatı, 1998. 180 səhifə

Cəsarətlə demək olar ki, hələ indiyə qədər heç kim Şamil Dəlidağın yazdığı dodaqdəyməz şerlərin bəlkə də beşdə biri qədər də belə şerlər yazmamışdır. Bu kitabda indiyə qədər ədəbiyyatda rast gəlmədiyimiz yeni şəkilli şerlər də çoxdur. Bunlara «dodaqdəyməz törəmə». «dodaqdəyməz, əvvəl-axır törəmə», «dodaqdəyməz, qoşa yarpaq, əvvəl-axır törəmə», «dodaqdəyməz, əvvəl-axır cinaslı» qoşmaları, gəraylıları, dördlükləri, məsnəviləri, qəzəlləri, təcnisləri misal gətirmək olar.

"KÜRDCƏ AZƏRBAYCANCA...LÜĞƏT"

Bakı, «Elnur –P» nəşriyyatı, 1999. 640 səhifə

Kürdcə – Azərbaycanca, Azərbaycanca-Kürdcə, Kürd dilinin qafiyə lüğəti» adlanan bu kitabda göründüyü kimi üç lüğət vardır. Hələ indiyə qədər heç kim tərəfindən bu adlarda lüğətlər tərtib edilməmişdir. Şamil Dəlidağın hazırladığı «Azərbaycan dilinin qafiyə lüğəti» «Azərbaycan dilinin mənzum cinas lüğəti», «Azərbaycan dilinin törəmə sözlər lüğəti» kimi lüğətlər də indiyə qədər heç kim tərəfindən hazırlanmamışdır.

Şamil bu lüğəti Azərbaycan və Kürd xalqlarının dostluğuna ithaf etmişdir.

"LAL QIZ"

Bakı, «Nərgiz» nəşriyyatı, 2003. 240 səhifə



«Lal qız» poeması kürdlərlə azərbaycanlıların tarixi dostluğuna və qardaşlığına ithaf edilmişdir.

Poemada bir çox maraqlı, ibrətamiz, azərbaycanlılarla kürdlərin sarsılmaz dostluğuna həsr edilmiş hadisələrə də rast gəlirik. Zindana salınmış ananın qardaşının və oğlunun kəsik başlarını ona göstərdikdə bu qəhrəman qadının özünü məğrur aparması, düşmən qarşısında əyilməməsi, qardaşının və oğlunun azadlıq yolunda qətlə yetirilməsinə görə qürur hissi keçirdiyini bildirir.

"DƏLİDAĞA SALAM"



Bakı, «Nərgiz» nəşriyyatı, 2003. 260 səhifə

Bu poema böyük Azərbaycan şairi Məmmədhüseyn Şəhriyarın «Heydərbabaya salam» pemasına cavab kimi yazılmışdır.

Poemadan bir neçə bənd:

Tək bacalı qara damda olardıq,
Ortasında od-ocağı qalardıq.
Dörd-beş uşaq bir yorğana dolardıq,
Təpikləşib, yorulmuşuq, yatmışıq,
Belə-belə boya-başa çatmışıq...
Dad çatarmı keçən günün dadına,
Nələr düşür gör adamın yadına:
Ay tutulsa yetişərdik «dadına»,
Tez-tələsik mis qazanı döyərdik,
Ay çıxanda özümüzü öyərdik...

"AZƏRBAYCAN DİLİNİN QAFİYƏ LÜĞƏTİ"

Bakı, «Nərgiz» nəşriyyatı, 2003. 224 səhifə

Lüğət elmi qaydada yazıldığına görə kitabdakı müqəddimədəki «Lüğətdən istifadə qaydaları» barədə izahatı oxumaqla istənilən sözü dərhal tapmaq olar. Axırı ba, ca, ça.... za, bu qayda ilə sonu be, ce, çe...ze; bə, cə, çə.....zə, bı, cı, çı.....zı, bi, ci, çi.....zi, bo, co, ço.....zo, bö, cö, çö.....zö, bu, cu, çu.....zu, bü, cü, çü....zü olmaqla sözlər əlifba sırası ilə düzülmüşdür. Həmçinin sözlər axırı ab, ac, aç.....za o biri hərflər də bu qayda ilə sıralanmışdır. Axırı iki samitlə bitən sözlər də eyni üsulla qələmə alınmışdır.

"ŞERDƏ YENİLİKLƏR"

Bakı, «Nərgiz» nəşriyyatı , 2003. 300 səhifə

Şamilin bu kitabını da, xalq şairi Nəbi Xəzri onun üç kitabı haqqında yazdığı geniş məqaləsində dediyi kimi, «dilimizə və ədəbiyyatımıza böyük xidmət nümunəsi» adlandırmaq olar.

«Şerdə yeniliklər» kitabında indiyə qədər rast gəlmədiyimiz və ilk dəfə Şamil Dəlidağ tərəfindən qələmə alınan şerlər və poemalar özünə yer tapmışdır. Kitabda «Qarabağın harayı» adlı, iki hissədən ibarət poema bütünlüklə cinaslarla yazılmışdır. İndiyə qədər heç kimin cinaslarla yazılmış poemasına rast gəlməmişik. Kitabda «Dodaqdəyməz törəmə», böyük həcmli «Dodaqdəyməz dastan-hekayət» və bir çox başqa yeniliklər də az deyildir.

"AZƏRBAYCAN DİLİNİN MƏNZUM CİNAS LÜĞƏTİ"

1 cild, Bakı, «Nərgiz» nəşriyyatı , 2003. 284 səhifə.

Şamil Dəlidağın «Mənzum cinaslar» adlı 640 səhifəlik kitabı əslində «Azərbaycan dilinin mənzum cinas lüğəti» kril əlifbası ilə nəşr olunmuşdur. 2003-cü ildə bu kitab daha da təkmilləşdirilərək və buraya «Dodaqdəyməz cinaslar lüğəti»də əlavə edilərək latın əlifbası ilə iki ciliddə çapdan çıxdı.

Şamilin kitablar sırasında adını çəkdiyimiz «Mənzum cinaslar»dan verdiyimiz qısa məlumatda bu lüğətdən bəhs etmişik. Ona görə də burada yalnız onu qeyd edirik ki, bu iki cildlik lüğət tarixdə ilk dəfə yazılan mənzum cinas lüğətidir.

(davamı 4-cü səh.)

(əvvəli 3-ci səh.)

ŞAMİL DƏLİDAĞIN ÇAP OLUNMUŞ KİTABLARI

"AZƏRBAYCAN DİLİNİN MƏNZUM CİNAS LÜĞƏTİ" II CİLD

Bakı, «Nərgiz» nəşriyyatı, 2003. 304 səhifə

Bu lüğətdə 5-100 mənalı mənzum cinaslar işıq üzü görmüşdür. Həmçinin burada «Dodaqdəyməz cinaslar lüğəti»də mənzum şəkildə verilmişdir.

Lüğətin əvvəlində Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Budaq Budaqovun «Filologiya elminə yeni addım» adlı məqaləsi verilmişdir.

Akademik Budaq Budaqov yazır:

«Biz burada Şamil Dəlidağın poeziyamıza, eləcə də elmimizə gətirdiyi yeniliklərdən qısaca söhbət açdıq.

Şamil müəllim filologiya elmlər namizədi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Respublikanın Əməkdar Mədəniyyət işçisidir. Fikrimcə, onun tərtib etdiyi, yazdığı lüğətlər öz elmi məzmununa görə filologiya elmlər doktoru alimlik dərəcəsinə tam cavab verir. Həmin əsərlərin müvafiq müdafiə elmi şuarlarında müdafiə təqdim edilməsi yerinə düşərdi.

Ədəbiyyatımızın və dilimizin inkişafındakı uğurlu xidmətlərinə görə Şamil Dəlidağa öz razılığımı bildirir, son dərəcə işgüzar və məsuldar şairə yaşının 80 illik mərtəbəsində uzun ömür, cansağlığı və yeni-yeni yaradıcılıq uğurları diləyirəm».

"KÖRPƏNİN MÜNƏCCİMİ"

Bakı, «Təfəkkür» nəşriyyatı, 2003. 196 səhifə.

Şamil müəllm bu kitabı tanınmış uşaq həkimi, tibb elmlər namizədi Mehdi Qurbanova həsr etmişdir. Kitabda Mehdi müəllimin fəaliyyətindən geniş söhbət açılmış, onun haqqında xatirələrə yer verilmiş, şərəfinə həsr olunmuş şerlər çap olunmuşdur.

Şamil, bu kitabda, o çümlədən, bir çox dərman bitkilərinin hansı dərdin əlacı olduqlarını şerləşdirib oxucuların diqqətinə çatdırmışdır.

"MİN SUALA MİN CAVAB"

Bakı, «Nərgiz» nəşriyyatı, 2004. 152 səhifə.

Bu kitabın yazılmasının köklü səbəbi vardır. Azərbaycanın dahi müğənnisi Bülbül rəhmətə gedəndə Şamilin ağdamlı dostu Zeynal Məmmədli ona kədərli bir məktub yazır və üç suala («İnsan nədir?» «Həyat nədir?», «Ölüm nədir?») tezliklə cavab verməyi xahiş edir. Bülbülün vəfatından həyacan keçirən Şamil müəllim əvvəlcə Zeynalın suallarına uzun-uzadı bir məktub yazmağa başlayır. Lakin bu yazısı Şamilin özünü qane etmir. O, Bülbülün Azərbaycan üçün böyük və ağır bir itki olduğunu bildirib dostunun suallarına aşağıdakı cavabları verir:

İnsan nədir?

İnsanın həyatı bax, budur ancaq:
Bir müddət torpaqdan fərqlənən torpaq.

Həyat nədir?

Həyat dəyirmandır, biz onun dəni,
Geriyə qaytarmır gəlib-gedəni,

Ölüm nədir?

Ölüm canlılarla hey çarpışandır,
Sonra qalib gələn bir pəhləvandır.

"KƏRBƏLA MÜSİBƏTİ"

Bakı, «Nərgiz» nəşriyyatı, 2004. 84 səhifə.



Kitabda Ulu Yaradanın 100 adının, Həzrət Məhəmməd peyğəmbərin 99 adının mənası və vəsfi şerlə verilmişdir.

Burada Həzrəti Məhəmməd peyğəmbərin İmam Həzrət Əliyə nəsihətlərindən, Həzrəti Əlinin kəlamlarından şerləşdirilmiş parçalara, 12 imamın tərifinə rast gəlmək olar.

Kitabda çap olunan «Kərbala müsibəti» poeması tarixi faktlara əsaslanaraq qələmə alınmışdır. Həzrəti imam Hüseynin, uşaqlı, qadınlı 80 nəfərə çatmayan kiçik bir dəstəsinin 10 minlik Yezid qoşununa qarşı fədakarlıqla vuruşmaları, bilə-bilə canlarını islam dini uğrunda qurban vermələri, onların belə sarsılmaz iradə və əqidəyə malik olmaları misli-bərabəri olmayan bir ibrət dərsidir.

AŞIQ HÜSEYN BOZARQANLI

Bakı, «Sabah» nəşriyyatı, 2004. 148 səhifə

Tanınmış el sənətkarı Aşıq Hüseyn Bozalqanlı yel xəstəliyinə tutulduğuna görə təqribən 1930-cu illərin ortalarında müalicə üçün Kəlbəcərə-İstisuya gedir. O, burada zivelli Aşıq Həmidlə tanış olur və tezliklə onların arasında dostluq yaranır.

Aşıq Hüseyn Bozarqanlı İstisuda qaldığı uç aya yaxın müddətdə Aşıq Həmidlə bir çox məclislər keçirir, tarixi yerlərə səfər edir, maraqlı hadisələr baş verir. Bu münasibətlərlə hər iki aşıq xeyli şerlər qoşur və bu hadisə dastanlaşır.

Şamil Dəlidağ uzun müddət və gərgin axtarışlar və tədqiqatlar aparır və nəticədə o, «Aşıq Hüseyn Bozarqanlının Kəlbəcər səfəri» dastanını yazır. Bu kitabı tərtib edən, ön söz yazan və redaktoru Şamil müəllimdir. Kitaba Aşığın qardaşı nəvəsi Fəxrəddin Quliyev rəy yazmışdır.

Adı çəkilən bu dastan maraqla oxunur və rəğbətlə qarşılanır.

"TÖRƏMƏ SÖZLƏR LÜĞƏTİ"

Bakı, «Nərgiz» nəşriyyatı, 2004. 116 səhifə.

Şamil Dəlidağ 1983-cü ildən başlayaraq «törəmə» adlandırdığı şerləri çap etdirirdi. O, hər dəfə hər sözün ilk hərflərini bir-bir pozaraq, yaxud hər dəfə bir kəlmənin əvvəlinə bir-bir hərfləri artıraraq yeni sözlər törətməklə yeni qafiyələr yaradır. Məsələn, «çəkərəm» sözündən hər dəfə bir hərfi silməklə «əkərəm», «kərəm», «ərəm», «rəm» və «əm» qafiyələrini törədir. Digər misal: «xına» sözünün əvvəlinə «a», sonra «y» hərflərini yazmaqla yeni «axına», «yaxına» qafiyələri törənir.

Şamil müəllim müxtəlif şəkildə törəmə şerlər yazmışdır. İndi onun xeyli miqdarda törəmə şerlər yazan ardıcılları vardır. Bütün bunları nəzərə alaraq Şamil Dəlidağ « Törəmə sözlər lüğəti» hazırlayıb çap etdirmişdir. Kitabın sonunda onun törəmə şəklində yazdığı şerlərdən nümunələr verilmişdir.

ŞAMİL DƏLİDAĞIN TƏRCÜMƏ ETDİYİ KİTABLAR

ƏHMƏD XANİ "MƏM VƏ ZİN"

Bakı, «Gənclik» nəşriyyatı, 1976, 144 səhifə.

Maraqlıdır ki, Əhməd Xani bu poemanı 44 yaşında yazmışdır. Şamil müəllim onu 44 yaşında tərcümə etmişdir.

Kitabdan bir parça:

Xani kamal alıb dolanda yaşa,
Kamalsız meydana etdi tamaşa.
Hünər olmasa da əgər nəsibi,
Əşirət təsibi, elin təsibi,
Çarəsizlik onu inada saldı,
Adətin tərsini qələmə aldı.
İçdi xam şərbətdən dürdü, cövhəri,
Doğma kürd dilini – incini, zəri.
Nizam – intizamla sıraya düzdü,
Şair xalq yolunda cəfaya dözdü –
Deməsinlər: hanı kürdün qüdrəti,
Əsli, nəcabəti, mədəniyyəti?!
Var elmi, kitabı özgə millətin,
Kürdə nəsib olar bu hünər çətin.
Görənlər deməsin: binadan bəri,
Kürdün məhəbbətdən yoxdur xəbəri.

"EHTİRAM"

Bakı, «Azərnəşr», 1975. 74 səhifə

Əli Əbdürrəhman 1920-ci ildə Türkiyənin Van qəzasının Bayram kəndində dünyaya gəlmişdir. Sonra Ermənistanda yaşamalı olmuşdu. O, burada bacarığı nəticəsində bir çox vəzifələrdə işləmiş, Quşçuluq komitəsinin sədri olmuş, «Rya təzə» («Yeni yol») qəzetində çalışmışdır. Əlinin hekayə, povest, roman və şer kitabları kürd dilində dərc edilmişdir.

Erməni xəyanətkarları azərbaycanlılarla birlikdə kürdləri də yurd-yuvalarından qovduqda Əli Əbdürrəhman və onun qohum-əqrabaları Bakı şəhərində sığınacaq tapdılar. Ali təhsilini vaxtı ilə Bakıda alan tanınmış yazıçı Əli Bakı torpağına da qismət oldu.

Onun «Ehtiram» adlı kitabını Şamil Dəlidağ kürd dilindən Azərbaycan dilinə tərcümə etmişdir.

NAVA VAN SALÊN DAWÎYÊDA

Pirtûkên, ku Şamîl Delîdax rêdaktorî lê kirîyê û pêşgotin nivîsîye.

1.Mêhbalî Kûlîyêv. (Kûrd Mêhbalî) – «Vətənimi tərk etmərəm» («Ez ji welatên xwe dernabim» Helbest, Bakû, sala 2001.

Mamoste Şamîl bona vê pirtûkê ji 12 rûpêla pêşgotîn nivîsîye.

2.«Gulgêz nene» («Gûlgêz ana»), («Dayîka Gulgez» –«Bayatilar» – («Dilokan», Bakû, sala 2001).

Gulgeza Xelîl – dayîka mamoste Şamîle. Ewa efrandara dilok-bayatîya bû. Pirtûkêda hîm bi kurdî, him bi azerbaycanî dîlok- bayatîyan ronahî dîtîne.

Çawa minok çend dîlokên wêra bibîne nas:

Dilê me pir birîne,
Çavên me bi girîne.
Tene felek dizane,
Bo me çi kirine.

Kulên dila hezare,
Bê war wek mezare.
Firotîn çîyayên me,
Va bazar, çi bazare?

Vestîyayî çiraye,
Xîyanet ji çiraye?
Vetenfiroş û dijmîn,
Nerdu hevra biraye.

Kurdistan çare çima?
Îro reşçare çima?
Û mîna me revokîn,
Hemû bê ware çima?

Bona vê pirtûkê mamoste Şamîl pêşnivîserek nivîsîye û çend helbestên xwe rewayî dayîka xwe kirîye.

Dayîka Gelgezê 87 sal jîyan derbazkirbû, gava ewê dunya xwe guhastînê 132 nevî, nevîçîrkê wê hebû.

3.Demirçi Abbas – «Mən necə gülüm» (« Ez çawa bikenîm» – helbest. Bakû, sala 2002.

Mamoste Şamîl bona vê pirtûkê 19 rûpêl pêşnivîsar nivîsîye û hevçûnên wan hatîye weşandinê.

4.Ehmed Bayramoxlû– «Həyatdan gələn səslər» («Dengê ji jîyanê hatî» helbest, Bakû, sala 2002-a).

Mamoste Şamîl bona vê pirtûkê 12 rûpêl pêşnîvîsar nîvîsîye, hîm jî helbestên wî ronahî dîtine.

5.Refayıl Mayilov – «Vətən haraylayır çağırır bizi» (« Welat hewear – gazîya me dike» helbest Bakû, sala 2002-a).

Mamoste Şamîl bona vê pirtûkê pêşnîvîsar nîvîsîye. Helbestên derbarê wî da jî ronahî dîtmne.

6.Yunis Abdullayev – «Göyçənin gülən və ağlayan gözləri» («Çavên bi ken û girî yên Goyçeyê»

Bîranîn. Bakû, sala 2002-a

Mamoste Şamîl him pêşnivîsar nîvîsîye, him jî helbesta wîye hevdeng, ya bî navê «Pîrçûka Goyçayê» – ronahî dîtîye.

GAVÊN PÊŞIN

Şamîl Delîdax dastanek û çar poyêmên usa nivîsîne, ku hetanî roja îroyîn tu kesî bî wî awayî nenivîsîne.

1.«Dastan–çîrok»«İsa-Sedaget»

Ev dastan-pirtûk ji sêrî hetanî dawyê bi lêvlihevnektîyava hatîye evrandinê. Dastanêda 3600 rêz hene, Ya ecêb ewe, wekî hemû gilî-gotîn bi lêvlihevneketîyava hatîne nivîsarê.

Ev dastana mezin bi hezmekar tê xwendinê.

2. «Dilar çima girîya» – Ev poyêma jî bi lêvlihevnektîyava hatîye nivîsarê. Kurt derbarê poyêmêda. Sê kurê Dilar hebûne. Dilnar, Diljar û Dilzar. Neyar êrişî welêt dîkîn. Bav gazî kurê mezin Dilnar dike û dibêje:

Çeka xwe hilde here hewarîya welêt.

Ew diçe şêr û mêrxasîyên nebînîyayî dîke, dawîyêda dîbe çangorî.

Gava darbestê wî tînîne gûnd, dê xûşk, wêlîyên gund dıgirîn, xwe diperitîn, lê bav nagirî. Dibên, dîlê wî kevîre. Dilar dîbêje:

-Kurê mîn rîya welêta cangorî bûye, Bona cangorîya nagirîn.

Îcar bav kurê navîn dîşîne şêr. Ew jî bi mêrxasî dibe cangorî. Bav bona wî jî hêsira nabarîne.

Dawîyêda kurê bîçûk jî dîçe şêr. Nav –degê wî, mêrxasîya wî dîbe ya ser zara. Lê sed mîxabîn ew jî mîna bîra boy welêt dibe cangorî.

Bav ser tirba wî digirî!

Kalek tê jî bavê dîpirse:

-Lê tu çîma digirîyî? Lê bona kurên dînê çîma negirîyayî?

-Ez bona wê yekê dıgirîm, wekî îdî kurên mîn tunenın bîşînîme şêr.

3. «Çarenûsa revo». Poyêma hevxulîqîye lêvlihevneketî. Hetanî naha tu kesî bi vê rewajê poyêm nenivîsîye. Revo gellekî zuma axê dîbîne, poyêmêda qewmandîn usa diqewîme, wekî revoyê îro, sîbê dibê serokê gund, axayê gund dîbe revovan.

4. «Keça gavan» – Poyêma bi lêvlihevneketî û pêş-paşva hatîye nivîsarê. Ev jî tîştekî berbi çave ku, heta naha bî vî awayî poyêm nehatine nivîsarê.

Poyêmêda mêrxasîya keça gavîn bi bedewî hatîye nitrandinê.

5. «Hewarîya Qerbaxê» – poyêma bi hevdengî hatîye efrandînê. Ev jî bebrê pênûsa Şamîle nûhe. Poyêmada ew yek hatîye nivîsarê, wekî Qerbax yeko-yek hewarê dadîxe nehîyên Azerbaycanê, hemû nehî jî bersîfê didîn, wekî eme bêne hewarîya te.

Ev poyêm pirtûka bi navê «Hewara Azerbaycanê»da jî hatîye weşandtnê. Badilhewa nîne, helbestvanê gel Bextîyar Vahabzade di pêşgotîna wêda, navê vê poyêmê bî bîlîndarî û şêkirdarî dîkîşne.

Me bi kurt derbarê wê yekêda nîvîsî, wekî mamoste Şamîl qellek tîştên nûh anîye nava wêje. Lê wekî mîrov evê kîrîne bi firetî binîvîse, ewe bîbe çend pirtûkan.

XAR KIRÎNE KURDISTAN

Çavê mine çavê te,
Bavê mine bavê te.
Bi dilê min navê te,
War kirîye, Kurdistan.

Li serê min teylesan,
Tanê tuyî, wî bizan.
Ajarê te neyeran,
Çar kirîye, Kurdistan.

Girtîye, dor-tenîştan,
Berdaye pir lemiştan.
Neyarên tat bi piştan,
Bar kirîye Kurdistan.

Tu bûyî pir war-wêran,
Dilê te dît kul û jan.
Kedên tê wan dijminan,
Har kiriyê, Kurdistan.

Tat, zinare barê te,
Lê bilinde serê te.

Ev dijminan perê te,
Xar kirîye, Kurdistan.

Şikir, tune gurên te,
Jro tûje şûrên te.
Bo rizgarî, kurên te.
Kar kirîye, Kurdistan.

Bİ YEKTÎYE GELÊ TE

Kurdistan, per-pir salan,
Derê te ma dadayî.
Te dît tojan, pir todan,
Tune li ser te sayî,
Îro tuyî bê xayî,

Xayîke gund, bajaran,
Hizke ji dil cînaran.
Tu çax li ber neyeran,
Mebe, mebe westayî,
Mebe, mebe şaşmayî.

Te hiştine bê ajar,
Te kişand pir ah û zar.
Ev neyarên gûrên har,
Bi te dike letayî,
Mebe dil bi damayî.

Dijiînên te qellaşe,
Çaven wana tim şaşe.
Daxwaze te pir başe,
Nête teye azayî,
Bibîn, bibîn dilşayî.

Pir gerime kelê te,
Koşke her der pêlê te.
Bi yektîyê gelê te,
Tarî dibe ronayî,
Pir pêwîste tevayî.

AZERBAYCAN - KURDİSTAN

Du bira bo min nase,
Her du bira gernase.
Gelek, gelek mêrxase,
Tev hevra pir qeyase.
Nîşanê wan sipase,
Dijminên wan xennase.
Du warin, du nîştîman,
Azerbaycan-Kurdistan.

Warên kerî-kerîne,
Kerîyan ne dûrîne.
Li her çax yek, gorîne,
Bedewin, wek horîne.
Li ber neyar korîne,
Li xebat pir esrîne.
Bûne bira, hevpenan,
Azerbaycan-Kurdistan.

Neyarên wan bêtere,
Derewkere, ne mêre.
Xûnmije, çav netêre,
Dilê wan bi qilêre.

Li ber du gel bi wêre
Wek şêre, wek camêre,
Du tûj şûrin, du îrban,
Azerbaycan-Kurdistan.
Tevra piştbev çîyane,
Bi gişkanra zîyane.
Ev rojin, ne xeyane.
Him bira, him pîyane.
Li wan pire pirzane,
Li wan tune enen.
Du dilbanın, du dastan,
Azerbaycan- Kurdistan.

Darîyê wan yektîye,
Yektîyê wan firtîye.
Xebatê wan mêrtîye,
Li rojen teng şêrtîye.
Şuxlê neyar boztîye,
Xapandine, setîye.
Du aşyanin, du çolan,
Azerbaycan-Kurdistan.

WÊJEDA NÛHBARÎ

Dîrokêda cara yekem ferheng û pirtûkên helbestaye bi darhêjen (form) nûh, ku Şamîl Delîdax nivîse.

I. Ferhengên, ku cara yekem nîvîsîne:

1. Ferhenga kurdî Azerbaycanî, Azerbaycanî –Kurdî û mişarên zîmanê kurdî (Bakû, sala 1999-a), Cîye bêjin ku hetanî naha tu kesî ferhengeke awa nenîvîsîye, ewa ji 640 rûpêlîye.

Bî gorîya mîn ev ferheng pireke dostîya Azerbaycan û Kurdane. Ewê tîmê bîbe alîkarê zîmanzan, wejezana, dî alîyê welgera herdu zımana.

Ewê jî bînine ser zara, wekî heta naha jî alîyê kurdzanada ferhenga mîşarên zımanê kurdî nehatîye nivîsare. Çawa eyane zîmanê kurdî hîm gelekî dewlemende, xwedanê çend zaravaye bona vê yekê ewa bê kêmasî nîne, him jî cêrbandîna yekêye. Em bawerın ku, paşdemîyê ewê bê kamilandîn û firekîrınê.

2. Ferhenga mîşarê zımanê azerbaycanê (Bakû, sala 2003-a, 240 rûpêle).

Vê ferhengêda mişarên usa hene, wekî heta naha jî alîyê tu kesîda pêknehatîne. Ewa bona efirandarên cîwan çavkanîke mezine.

3. Ferhenga zîmanê azerbaycanî ya bi helbeste hevdeng (yekdengî), (Bakû, sala 2003). Ew ji du bergane, ya yekê ji 384 rûpelan, ya dûda jî 304 rûpêlane.

Hetanî ronahî dîtîna van ferhengan di wêjeya Azerbaycanêda em rastî hevt –heyşt weteya hevdenga zêdetîr nehatıne. Lê ev ferhengên ku Şamîl Delîdax bi helbest ninîsîne, weke 100 weteyê hevdeng hene.

Pêşekzana ev ferhengana çawa tîştekî bi ecêb û nedîtî hêjandîne.

4. Ferhenga gilîyên jî hevxuliqî, (Bakû, sala 2004, 116 rûpêl). Gilîyên ji hevxuliqî (qewmîn) cara yekem Şamîl Delîdax anîye nava wêje.

Gilîyên hevxuliqî – qewmîn çine?

Torîvan her car ji pêşîya gilîyê nivîsî herifekê dîde hîldanê, yanê jî pêşîyê herfekê zêde dike, bi vî awayî gîlîyê nûh, mişara nûh dide xuliqandinê. Minak:

Bav av
Av çav

Dawîya vê pirtûkêda Şamîlê Delîdax hinek helbestên xweye bi awaya xuliqandinê daye waşandinê.

Darêjen helbestên nûh, yên ku Şamîl Delîdax efirandîye

1.Helbestên xuliqî

Minak:

Kanîyên me bi navin,
Pirr, pirr zelal bi avin.
Afetê gel pêşmêre,
Dilê wî bi êş mêre.

Du hemyarîn – hevnavîn,
Bi nav – nîşan ev navin.

2. Lêvlihevneketîyên xuliqî.

Mînak:

Boy akradan çîrane,
Yek Tirke, yek Îrane.

3.Pêş-paş
(rezên heyî helbestvan bi kîjan herfê destpêdike û bi wana kuta dibe, wêra dibên «pêş-paş»)

Mînak:

Navdarın li gerdûn warên Kurdistan,
Nasin bi mêrxasan û bi gernasan.

1. Levlihevneketî xulıqandî:

Mînak:

Nêreye deyn dayîn,
Nandarîye nas ayîn.

PİRTÛKÊN KU MAMOSTE ŞAMÎL NÎVÎSÎNE, LÊ JİRÛYÊ ABORÎYÊDA HÊ RONAHÎ NEDÎTÎNE.

1.«Hewar – gazîya ji zîndanê»
2.«Hewar – gazîya dilê mîn»
3.«Kurd di Azerbaycanêda»
4.«Hevdengên bi zimanê kurdî»
5.«Pira hemyarîyê» (Helbestên bi kurdî û yên jî azerbaycanî wegeranîye zımanê kurdî).
6.«Dilokên bi hevdeng»
7.«Hemyarên mine delal û nebîkirî».
8.«Kezelan»
9.«Du dastan».
10.«Avtograf»?
11.«Poyêman»
12.«Pêkenînên Kerbelayî Ferec».

Dİ VAN PÊNC SALÊN DAWÎYÊDA EFRANDÎNÊN MAMOSTE ŞAMÎL, YÊN KU ÇAPEMENÎYÊDA HATİNE WEŞANDÎNÊ

1. «Mirovê pirçûkê axê» – Ev pirtûk derbarê zanîyarê nav-deng Kûlû Xelîlovda bîranînın, (Bakû, sala 2002-a), rûpêlê vê pirtûkêye 193-203 da bîranîn û helbestên mamoste Şamîl hatîne weşandinê. Ew derbarê Kûlû Xelîlov da hatîne nîvîsarê.

2. Rojnameya «Îplûs» 31.III-2000.
Vê rojnamêda gotara mamoste Şamîl ya bî navê « Ji dagirkîrına Kelbecarê 7 sal derbaz bûye» hatîye weşandınê.

3.Rojnama «Rêspûblîka» – 4.IV.2001.
Vira gotara mamoste Şamîl, ya bî navê «Ev çîya kêra man» ronahî dîtîye.

4.Rojnameya «Respûblîka» yê 14.IV.2001.
Vê rojnamêda gotara mamoste Şamîl ya bî navê «Qerebaxêda dewleta kurdan» ronahî dîtîye.

5. «Îdêal» 31.XII-2001.
Vira helbesta bî navê «Li kuyî xwedanê hespe Boz, lî kuyî». 31.VIII.2001.

6. Rojnama «Samur», 30.XI.2001.
Vira bîranîna mamoste Şamîl ya bî navê «Bîranînên ku nayêne dawîyê».

7. Pirtuka bi navê «Gerdûna Dede Sulêyman» (Bakû, sala 2002-a)

Ev pirtûk rewayî nîvîskarê mezin Sulêyman Rehîmov bûye. Rûpêlên 185-191 da bîranîn û helbestên mamoste Şamîl, yê derbarê Suleyman Rehîmovda hatîne weşandinê.

8.Kovara «Azerbaycanê». Hemjar 7, sala 2002-a. Vira rûpêlên 147-157 da bîranîn, helbestên mamoste Şamîl derbarê nivîskarê gel Elî Velîyêda ronahî dîtıne.

9. Elîmîrhaşim «Jîyana kewran» (Bakû sala 2002-a). Vê pirtûkêda helbestên mamoste Şamîl, yên ku rewayî Elîmirhaşim kırêne hatîne waşandinê.

10. «Profêssor Vîdadî Xelîlov» (Bakû, sala 2002-a). Vira helbestên mamoste Şamîl, yên ku rewayî profêssor kîrine hatîne cî – warkîrınê.

11. Kovera – «Dengê cîwana» Nisan, sala 2002-a. Kovarêda kerîkî poyêma mamoste Şamîl ya bî navê «Kelbecer cinet û gulistana rûyê erdêye» hatîye weşandînê.

12. Rojnema «Dengê kurd» meha X-2002, XII-2002, II-2003, III-2003, IV-2003, X-2003, I-2004, II-2004, III-2004, IV-2004, V-2004, VI-2004, VII-2004, VIII-2004, IX-2004, X-2004, XI-2004, XII-2004 da gotarên mamoste Şamîl, yên weke 40 rûpêlî hatîne weşandînê. Gotarên derbarê «Kurd li Azerbaycanê», helbesten bî azerbaycanî, yên bi kurdî, helbestên welger û yên mayîn tîmê rûpêlê rojnamê xemîlandîye. Ewê jî bêjin çî ku mamoste Şamîl dînava pênc salada nîvîsîye jî hêza me derbû. wekî wana gişka bidine rêze.

XWENDEVANÊN HÊJA! HEMÛ QİNÎYAT-BİNETARÊN Bİ KURDÎ NİVÎSKARÊ KURD AHMEDÊ HEPO NİVÎSÎYE, AMEDE KİRÎYE

MERKEZ KÛLÎYÊV

MİRAZÊ ME

Hêyîyên bi mezaq bixwîn tu pir-pir,
Vedibe li ber te reyek bitav gir.
Yê ku tu hat dawî, esdem jî, bizan,
Biryal ku tu derxist jî dawer bîgir,

Bi ciftê gav dike sûdî, navnatî,
Mîqîm du şêş nade, zer nake firtî.
Li nav texelîfan em jiyîn dîkîn,
Gerdûn zanîn çiyê?- Limet û xurtî.

Li sîngê bîgerîn tu dilekî wer,
Pêwîstbe bi gişkan, bibe minewer.
Jî penc rojê gerdûn usa jîyînke,
Bila bibên birk da çû ev roj feler.

Darîk ne dîtîye bi mirin Lokdan,
Dîjî, xulik dîke, dimire gerdan.
Jîyîn mîna mêran derbazke, bira,
Bila navê te jî bîrkin pîr-pîr han.

Ez dîlekî teme ajarê dê, vê,
Tu nebîne hicir, bêdadî, dîvê.
Jî baxilê te pak ez perwaz bûme,
Yek tuyî bo min hub, evîn vê gavê.

Mêrxasê navgiran kanî lê Babek?
Li berê wî xûnkel neyar kir qirek.
Ev nav dastan bûye çend-çend sedsale,
Digare li gerdûn pir-pir û berek.

Xedar dizî-dizî bi rêça min ket,
Zên bi temul û ket bi teyam hilbet.
Lê ev bê nûçe bû ji ar, petê min,
Ket bi agiêr min qet nizanî qubet.

Mîna avê kanî mirazê me pak,
Bona gihiştîn hub em disin rê çak.
Li evîne me behr bohaz jî heye,
Hedî nasekîne tim behr, sêlak.

ŞAMÎLÊ SELÎM JÎ AZERBAYCANÎ WERGERANDÎYE

ŞAMİL DƏLİDAĞIN YARADICILIQ ÇEŞMƏSİNDƏN DAMLALAR

AZƏRBAYCANIM
(qoşma)

Mən sənə, dünyaya yetirdim nəzər –
Tay tapa bilmədim, Azərbaycanım.
Arazına bənzər, Kürünə bənzər,
Çay tapa bilmədim, Azərbaycanım.

Sənlə fəxr edir bütün el-oba,
Yazsam sərvətlərin sığmaz kitaba.
İstədim toplayıb alam hesaba,
Say tapa bilmədim, Azərbaycanım.

Sonu var ömrümüz olsa da ləziz,
Şamiləm, qoynunda bəs nə qoyum iz?
Qurbanı olmağa canımdan əziz,
Pay tapa bilmədim, Azərbaycanım.

ŞEYRİYƏTİMSƏN
(bütün kəlmələri eyni hərflə başlanan qoşma)

Şübhəsiz şahidəm, şahin-şonqarım,
Şüştərim, Şahnazım, şan-şöhrətimsən.
Şerimdə şəlaləm, şah Şəhriyarım,
Şerin şəkərdahan şəxsiyyətimsən.

Şivəsi şirinsən, şəfadarımsan.
Şahbazım, şükranım, şahdamarımsan.
Şərik şikarınam, şah şikarımsan,
Şahidinəm, şəxsən şərafətimsən.

Şeytanla, şarlatan şaşdırar şəklə,
Şərin şivənisən şimşəyə şölə.
Şadlığın şamısan, şerə şəlalə,
Şamil şairdisə, şeriyətimsən.

Haşiyə. Bu şəkildə şer yazmaq da çətin olan bir yenilikdir.

«Yan»ı atdan sala bilən,
Yurdu geri ala bilən,
«Misri», «Cəngi» çala bilən,
Bir tavar saz axtarıram.

Düşmən qanı içmək üçün,
El təsili çəkmək üçün,
Dərdi qəlbdən biçmək üçün,
Oraq, dəryaz axtarıram.

İşğal yurdun çarəsinə,
Çıxıb meydan mərəsinə.
Koroğlunun nərəsinə,
Bənzək avaz axtarıram.

DÖRDLÜKLƏR

Toplamayıb bir qınağa,
Dərman olub düyün dağa,
Qənim üstə şığımağa,
Qartal, Şahbaz axtarıram.

Dəlidağsız, Dəlidağam,
Yurd-yuvasız necə sağam?
Oda dönüb gərək yağam,
Çarəni az axtarıram.

Düzgün ölçi olan elin gözündə,
Hər bir ucalığın öz sərhəddi var,
Amma, alçaqlığın bu yer üzündə
Heç kim deyə bilməz sonu, həddi var.

Kola girib atan, aranı qatan,
Düşməni də öyüb əl çala bilər.
Namusu, qeyrəti, vicdanı satan
Əl alçaqdır, yenə alçala bilər.



Harınlar min illər xalqı edib qul,
Qızılla, gümüşlə məzələnibdir.
Toyu da nimdaşda keçirib yoxsul,
Öləndə paltarı təzələnibdir.

Belini əyməmiş yükə çarə qıl,
Tab gətirə bilməz sən boyda daşa.
Amma, dağ çəkidə olsa da ağıl,
Yenə də ağırlıq eyləməz başa.

KƏLBƏCƏR

Allahın nurundan xəlq olunubdu,
Yerdə yaranıbdı cənnət Kəlbəcər.
Heç bir gözəllikdən, həqiqətdir bu:
Götürməz zərrəcə minnət Kəlbəcər.

Qədərsiz səfalı yaylaqları var,
Sərin, narzan, isti bulaqları var.
Könül açan saysız oylaqları var,
Qazanıbdı qədir-qiymət Kəlbəcər.

Cansıza can verər behişt havası,
Xəstə udsa, yoxa çıxar nəvası.
Gül-çiçəyi min bir dərdin davası,
Sayılır aləmdə hikmət Kəlbəcər.

Desələr də qələm götür bir-bir yaz,
Gözəlliyi heç bir hesaba sığmaz.
Gəzib sanamağa ömür olar az,
Olubdu dillərdə şöhrət Kəlbəcər.

Mərd elinin qəlbi ən saf gövhərdi,
Şamiləm dedikcə qoaqpərvərdi.
Çavanı, qocası sinədəftərdi,
Qüdrətdən yaranıb qüdrət Kəlbəcər.

YAŞADANAM

(Törəmə qəzəl. Qəzəlin bütün qafiyələri hər dəfə «yaşadanam» sözündən bir ilk hərfi silməklə («aşa danam», «şad anam», «adanam», «anam» və «nam») alınan – törəyən sözlər əsasında yazılmışdır.)

Ürəyimdə yurd satana dərin nifrət yaşadanam,
Mən yediyim qəmi gərək düşmən yeyən aşa danam.

Yurd-yuvamı qanlı yağı alıb viran edibsə də,
Borcluyam yad önündə mən özümü bir şad anam.

Qəlbim deyir: torpaqları «yan»dan geri almayınca,
Dərdin-qəmin dəryasında ah-amanlı bir adanam.

Cavabdehlər rayonları yağılardan qorumadı,
Boynumuza almalıyıq, bacarmaram bunu danam.

Atam dağda məzarıyla girov qaldı qənimlərə,
Bakımızın torpağına qismət oldu qaçqın anam.

Dəlidağam, dözmək bəsdir, yurdumuzun xilasına –
Gərək bizi vadar etsin qeyrətimiz, vətənə nam.

Şamil Dəlidağın 1982-ci ildə mübariz şair Xəlil Rzaya yazdığı məktubdan bir parça

Deyirlər ki, bir oğulu
Doğa bilməz iki ana.
Çox uzağa getməyin heç,
Mən timsalam bu gün ona,
Bir anam kürd,bir anam Od –
Odlar yurdu Azərbaycan,
İkisinin yolunda da
Göz qırpmadan verərəm can,
Od anama sataşanı,
Diri-diri soyaram mən!
Kürd anama daş atanın –
Gözlərini ayaram mən.

DEYƏR

Gözəl, səni görən kimi, çaş-baş qalıb mələk deyər:
Camalını bizdən gözəl yaradıbdı fələk, - deyər.

Səndən rica eyləyərlər, yalvarırıq icazə ver,
Hüsnünə səcdə qılmağa hüzuruna gələk, - deyər.

Sənin kimi gülcamallı birisinə rast gəlmərik,
Kainatı eyləsək də tamam ələk-vələk, - deyər.

Minnət edib dönə-dönə, ağız açar: - Gəl razı ol,
Gözəl səni özümüzə baş mələykə bilək, - deyər.

Məcnundan betər etdiyin biçarə Şamil Dəlidağ,
Sənə elçi göndərməyi eyləmişəm dilək, - deyər.

NƏ VAXTACAN?

Üstümüzə çox cumub, yağılar olub quduz,
Nə vaxtacan düşmənin önündə mat qalaq biz?
Dönə-dönə tarixdə qayçılanıb yurdumuz,
Nələr torpaq vermişik bad, yada salaq biz,
Nə vaxtacan düşmənin önündə mat qalaq biz.

«Nə işimə qalıbdı»[1] sözü bizə yad olsun,
Əməlimiz vətənə imdad olsun, dad olsun,
Çıxıb qüssə gülündən qaçqın qəlbi şad olsun.
Xilasına yurdların axtaraq yol, yolaq biz,
Nə vaxtacan düşmənin önündə mat qalaq biz?

Qəlbimizdə yaralar işləyibdi dərinə,
Gərək bundan qərs alaq xəcalətin tərinə.
Əlbirliklə meydandan hünər etmək yerinə,
Eyləmişik dərd-qəmi sinəmizdə qalaq biz,
Nə vaxtacan düşmənin önündə mat qalaq biz?

Axıtmaqla göz yaşı, əsla, əsla kar aşmaz,
Büdrəsədə mərd olan nə titrəməz, nə çaşmaz.
Qalib əli qoynunda, durmaq mərdə yaraşmaz,
Yerdə qalan qisası əlbir olub alaq biz,
Nə vaxtacan düşmənin önündə mat qalaq biz?

Qanımıza susayan-çox nahaq qan əkibdi,
Şirə qalıb dişində, düşünən əl çəkibdi.
Yurdumuza yenədə daşnaqlar göz dikibdi,
Bəsdir, bəsdir! Qeyrətlə, yekdilliklə dolaq biz!
Nə vaxtacan düşmənin önündə mat qalaq biz?

1.Bu ifadə böyük kürd şairi Ciyərxuna məxsusdur.

Serbestî û Azayî Roja Geşe! Koletî û Bindestî Roja Reşe!

DENGÊ KURD

NAVENDA ÇANDA KURD "RONAHİ"

HELBESTVAN ŞAMÎLÊ SELÎM HÎM JÎ Bİ KURDÎ DİNİVÎSE, DİEFRÎNE. EM JÊRÊ HELBESTÊN WÎYE Bİ KURDÎ EFRANDÎ DİGİHÎNE XWENDEVANÊN BİRÊZ!

KURD SERKARE

Kurdistan çaran,
Pîrî-parîye.
Riya wê dîsa
Gelek tarîye.
Neyar bi pişte,
Kurd bê arîye.
Dizane, dijmin
Pir kedxarîye.

Bê aza mayîn,
Şermosarîye.
Gelek mêrxase,
Kurd şerkarîye.
Li rîya welat
Ne xewarîye.
Raste, berê wî
Pir xubarîye.

Neyar mîna gur,
Bê cabdarîye.
Xebatê wî baş
Cehangirîye.
Bona wî kuştin
Dilawerîye.
Talan û xapîn,
Bo dildarîye.

Bi Kurdistan, va
Çi hinarîye?
Bi serê welat,
Agir barîye.
Derdê gelê wî,
Bê jimarîye.
Her roj li waran,
Palamarîye.

Mirazê xortan,
Xundawarîye.
Xebatê dilan,
Xurtebarîye.
Dizanin, neyar
Pir zefkarîye.
Bersîva dijmin,
Zeqim dayîye.

Bo kurd rozgarî,
Evndarîye.
Li gerdûn tev-hev,
Hevaldarîye.
Gelê Kurdistan,
Pir nandarîye.
Bona rozgarî
Pir pêştarîye.

ÇÎYE VA QESAS?

Ey gelê mêrxas,
Ey kurdên kesas!
Neyarê xennas
Pirçûk daye te
Li dîrok çiqas?

Ey gelê renas,
Ey kurden gernas!
Neyarên lopas
Xapînok dike,
Tu maye pêxas.

Ey gelê dilxas,
Kurdên bê kiras!
Bi das, bi leas
Tu mayî birçî
Çiye va xewas?

Ey gelê pir nas,
Ey kurdên sipas!
Li kûye xelas?
Li war, bê ware,
Çiye va qesas ?

KURD Jİ AZERÎ

Tev-hev bi yarî,
Dikine arî,
Dibine girî.
Tu qas, tu-carî,
Nayê behandin,
Kurd ji Azerî.

Gelek berêzin,
Tev-hev hemêzin.
Bi hev kinêzin,
Ninîn damarî,
Nayê behandin,
Kurd ji Azerî.

Bi nav - nîşanin,
Bo hezar janîn,
Yek dil, du canin,
Nas bûn nandarî,
Nayê behandin
Kurd ji Azerî.

Dostin bê pîvan,
Li şer bûn beran.
Li nîşanê wan,
Heye kubarî,
Nayê behandin,
Kurd ji Azerî.

Mina du çave,
Pir-pir kazave.
Gelek bi nave,
Li wan hemyarî,
Nayê behandin,
Kurd ji Azerî.

Van du afete,
Bi pir qinyete.
Mîna dawete
Bi wan şerkarî.
Nayê behandin,
Kurd ji Azeri,

Bi şik û îlle,
Pir-pir ewale,
Gelek pîrovle
Liwan dildarî.
Nayê behandin,
Kurd ji Azerî.

ÇÎYAYÊN KURDİSTAN

Çîyayên Kurdistan gelek bilindin,
Kî çi qas dixwaze, tim ev qas rindin.
Bê jimar sind, baxor, rêçe, hevraze,
Newalên kûr, jêre, hewraze, gaze.
Ber der kulilîke, gulênên sore,
Çatûrk û pûnge, sosine, more.
Bi dilgeşî binhêr çiqeste zozan,
Bê jimare kerî, garan li çîyan.
Tu dibêjî her der xalîye, merşe,
Kanîyên sar, germ, kanîyên tirşe.
Zêr, sîme, hesine bînê wan çîyan,
Lê bona gelê kurd bûye derd û jan.
Mîna xort dilize, pîra sedsalî,
Dajo hespê kîhêl bi her dor-allî.
Lî van çîyana keç, bûk mîna horîye,
Bi rewşe, bedewe û reşburîye.
Xortên kurd li meydan efat, gernase,
Gelê kurd nandare û pir mêrxase.
Lê ezel razaye, ne helsîyaye,
Pirçûkên dilê gel gelek zîyaye.
Li çîyayên bedew rozgarî tune,
Ez nikarim bêjim hişyarî tune.
Hezar-hezar salin kurd maf dixwaze,
Li çîyan heware û gaze-gaze.

Bİ TE BİBİM EZ GORÎ

Dîsa Newroz-roja nû,
Hat, dilê me pir şabû.
Li dilê gel, wer bizan,
Derbaz kirin dewat-bû.

Roj derbazbû, hat tarî,
Em dîsa man bêdarî,
Tenê rojêk em şabûn,
Me dît rojek rizgarî.

Ey roja nû-ey newroz,
Çawa bikim te pîroz.
Hilgirane gelê me,
Tune bo me cegersoz.

Welat çar kerîye,
Li her dor-ber girîye.
Ezelê kurd razaye,
Yan ji zûda mirîye.

Bi te bibim ez gorî,
Newroz, xaşke vî mirî.
Deser tebim, wer bike,
Bila yekbe çar kerî.

NİHA GEREWE

Tu, ey Kurdistan,
Gelek bedewî.
Lê mayî bi jan
Û çav bê xewî.

Gelê te bokan,
Dît gelek beyan.
Maye bê eşyan,
Dil bi ketewe.

Neyar artoke,
Tepitepoke,
Pir xapînoke,
Û dev derewe.

Neyar pir zoro,
Tu deredero.
Berê te îro
Gelek neqewe.
Tu li nav hewre,
Maye destfire.
Tu birçî, jare,
Dijmin qelewe.

Tûje şûrên te,
Pire surên te.
Şikir, kurên te
Gişk çar cilewe

Ey kurd, rabe pê,
Tu mebe berpê.
Nemîn qet bêpê,
Niha gerewe.

Rêdaktorê berpirsiyar:
Ahmedê Hepo

Endamên rêdaksîyayê:
Kamilê Ekber
Arîf Şamo
Baxış Hûsêynov
Yûnîs Abdullayêv
Bayramê Fetî
Murvet Qedimoxlû
Rêfayîlê Celîl
Akîf Hesenzade

Destûrname № 88

Qəzet "KMM-nin kompüter mərkəzində yığılıb səhifələnmişdir.

Tiraj 500

NAVENDA ÇANDA KURD
"RONAHİ"
KÜRD MƏDƏNİYYƏT MƏRKƏZİ